**Hər kəs öz məsuliyyətini anlamalıdır**

Lotereyaların və idman mərc oyunlarının qanunsuz təşkili və ya keçirilməsi inzibati və cinayət məsuliyyəti yaradır

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 30 sentyabr 2011-ci il tarixli, 200-IVQD nömrəli və «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 30 sentyabr 2011-ci il tarixli, 199-IVQD nömrəli qanunları ilə müvafiq olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (İXM) və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (CM) bir sıra maddələr əlavə edilmişdir. Qeyd edilən qanunlar qüvvəyə mindikdən sonra lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buna hüququ olmayan şəxs tərəfindən təşkili və ya keçirilməsi, qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının təşkili və ya keçirilməsi İXM-in 199-3-cü maddəsinə müvafiq olaraq inzibati məsuliyyətə, həmçinin bu əməllər vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurduqda, habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə CM-in 192-1-ci maddəsinə müvafiq olaraq cinayət məsuliyyətinə səbəb olur. Burada «xeyli miqdar» dedikdə, min manatdan yeddi min manatadək olan məbləğ başa düşülür.

Lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buna hüququ olmayan şəxs tərəfindən təşkili və ya keçirilməsi, qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının təşkili və ya keçirilməsi təkrar törədildikdə, vətəndaşlara, təşkilatlara və ya dövlətə külli miqdarda ziyan vurulduqda, habelə külli miqdarda gəlir əldə etməklə törədildikdə, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə ağırlaşdırıcı hal hesab edilir və daha ağır cəzaya səbəb olur - cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç misli miqdarında cərimə və ya bir ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Burada «külli miqdar» dedikdə isə yeddi min manatdan artıq olan məbləğ başa düşülür.

Qeyd edilənlərlə yanaşı, həmçinin qumar oyununda iştirak etmək də inzibati məsuliyyət yaradır. Belə ki, qumar oyununda iştirak etmək, yəni qumar oynamağa görə oyun ləvazimatı, habelə qumara qoyulmuş pul vəsaitləri və ya digər əmlak müsadirə edilməklə fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək cərimə edilir. Bildiririk ki, «qumar oyunu» dedikdə pul vəsaitləri, maddi və sair nemət (uduş) əldə etmək məqsədilə oynanılan və uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan oyun başa düşülür.

Lakin qumarxana, yəni qumar oyunlarının keçirilməsi üçün yer təşkil etmək və ya saxlamaq cinayət məsuliyyətinə səbəb olur və iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər təkrar törədildikdə, həmçinin qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə daha ağır cəzaya səbəb olur, yəni üç ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Sonda onu da qeyd edək ki, qanunla müəyyən edilmiş qaydada keçirilən lotereya və idman mərc oyunlarına İXM-in və CM-in müvafiq maddələrinin qüvvəsi şamil edilmir.

**Hüquq idarəsi**